## 1. Məqsəd

Bu siyasətin məqsədi **Vecon Consulting MMC-də** sığorta təminatının davamlılığını təmin etmək, riskləri effektiv şəkildə idarə etmək, şirkətin maliyyə və əməliyyat dayanıqlığını qorumaq və əməkdaşların təhlükəsizliyini təmin etməkdir.

Siyasət aşağıdakı beynəlxalq standartların tələbləri nəzərə alınaraq hazırlanmışdır:

- *ISO 9001:2015 – Keyfiyyət İdarəetmə Sistemi.Tələblər*
- *ISO 37001:2025 – Rüşvət əleyhinə İdarəetmə Sistemi.Tələblər.*
- *ISO 45001:2018 – Əməyin mühafizəsi və Peşə sağlamlığının qorunması üzrə idarəetmə sistemi*
- *ESG prinsipləri – Ekoloji, sosial və korporativ idarəetmə*

## 2. Əhatə dairəsi

Bu siyasət **Vecon Consulting MMC-nin bütün struktur bölmələrinə, əməkdaşlarına və şirkətin fəaliyyətində istifadə olunan aktivlərə** şamil edilir.

Sığorta təminatı aşağıdakı risk sahələrini əhatə edir:

- şirkətin əmlakı və aktivləri
- peşə məsuliyyəti riskləri
- əməkdaşların həyat və sağlamlığı
- əməyin mühafizəsi və təhlükəsizlik riskləri
- üçüncü şəxslərə qarşı məsuliyyət
- avtomobil və texniki vasitələr
- əməliyyat və biznes fasiləsi riskləri

## 3. Sığorta təminatının əsas prinsipləri

### 3.1 Risk əsaslı idarəetmə

Sığorta təminatı risklərin müəyyən edilməsi, qiymətləndirilməsi və idarə olunması prinsipləri əsasında həyata keçirilir.

### 3.2 Davamlılıq

Şirkətin sığorta təminatı fasiləsiz olmalı və sığorta müqavilələrinin müddəti bitməzdən əvvəl yenilənməlidir.

### 3.3 Şəffaflıq və etik idarəetmə

Sığorta müqavilələrinin bağlanması və idarə olunması proseslərində korrupsiya risklərinin qarşısı alınmalı və bütün əməliyyatlar şəffaf şəkildə həyata keçirilməlidir.

### 3.4 ESG uyğunluğu

Sığorta təminatı şirkətin ekoloji, sosial və korporativ idarəetmə prinsiplərinə uyğun şəkildə həyata keçirilir.

## 4. Sığorta risklərinin idarə olunması mexanizmi

**“Vecon Consulting” MMC**-də sığorta təminatının idarə olunması aşağıdakı sənədlər və mexanizmlər vasitəsilə həyata keçirilir.

## 5. Sığorta Risklərinin Qiymətləndirilməsi qaydaları

Vecon Consulting MMC-də sığorta risklərinin qiymətləndirilməsi üçün ayrıca “**Risklərinin Qiymətləndirilməsi Proseduru” (VCN-İMS-P-008)** tətbiq edilir.

Bu prosedur aşağıdakı mərhələləri əhatə edir:

- sığorta risklərinin müəyyən edilməsi
- risklərin başvermə ehtimalının qiymətləndirilməsi
- risklərin təsir səviyyəsinin müəyyən edilməsi
- risklərin prioritetləşdirilməsi
- risklərin sığorta vasitəsilə azaldılması imkanlarının müəyyən edilməsi
- risklərin mütəmadi yenidən qiymətləndirilməsi

Bu prosedur **risk əsaslı düşüncə, anti-korrupsiya riskləri, ekoloji aspektlər və peşə təhlükəsizliyi risklərinin idarə olunması** prinsiplərinə uyğun şəkildə həyata keçirilir.

## 6. Sığorta Müqavilələrinin İdarə Edilməsi qaydaları

Şirkətdə sığorta müqavilələrinin idarə olunması üçün **“Müqavilələrinin İdarə Edilməsi Proseduru” (VCN-İMS-P-010)** tətbiq edilir.

Bu prosedur aşağıdakı prosesləri əhatə edir:

- sığorta ehtiyaclarının müəyyən edilməsi

- sığorta şirkətlərinin seçilməsi və qiymətləndirilməsi
- sığorta müqavilələrinin bağlanması
- müqavilə müddətlərinə nəzarət
- müqavilələrin yenilənməsi və dəyişdirilməsi
- sığorta hadisələri üzrə müraciətlərin hazırlanması

Bu prosedurun icrası **şəffaflıq və anti- korrupsiya nəzarət prinsiplərinə** uyğun həyata keçirilir.

**7. Qeydiyyat.**

Vecon Consulting MMC-də bütün sığorta müqavilələrinin qeydiyyatı üçün **Sığorta Reyestri** aparılır.

Sığorta reyestrində aşağıdakı məlumatlar qeyd edilir:

- sığorta növü
- sığorta şirkətinin adı
- sığorta obyektinin təsviri
- sığorta məbləği
- müqavilənin bağlanma tarixi
- müqavilənin bitmə tarixi
- məsul şöbə və ya şəxs
- yenilənmə statusu

**8. Sığorta risklərinin sinifləndirilməsi.**

Şirkətdə sığorta risklərinin prioritetləşdirilməsi üçün **Sığorta Risk Matrisi** tətbiq olunur. Risk matrisi vasitəsilə yüksək risklər və sığorta təminatının səviyyəsi müəyyən edilir , risklərin azaldılması tədbirləri planlaşdırılır

Risk matrisi aşağıdakı göstəricilər əsasında hazırlanır:

- riskin başvermə ehtimalı
- riskin maliyyə təsiri
- əməliyyat təsiri
- işçi təhlükəsizliyinə təsiri
- ekoloji təsiri
- reputasiya riski

## 9. Məsuliyyət bölgüsü

### 9.1. Dirketor

- siyasətin təsdiq edilməsi
- sığorta təminatının maliyyələşdirilməsi
- sığorta risklərinə nəzarət

### 9.2. Maliyyə və inzibati şöbə

- sığorta müqavilələrinin idarə olunması
- sığorta reyestrinin aparılması
- risk qiymətləndirmələrində iştirak

### 9.3. Əməkdaşlar

- risk yarada biləcək halları rəhbərliyə bildirmək
- təhlükəsizlik və əməyin mühafizəsi qaydalarına riayət etmək

## 10. Monitorinq və audit

Siyasətin icrasına nəzarət aşağıdakı mexanizmlər vasitəsilə həyata keçirilir:

- daxili auditlər
- risk qiymətləndirmələri
- rəhbərlik tərəfindən dövri monitorinq
- sığorta təminatının illik qiymətləndirilməsi

## 11. Siyasətin yenilənməsi

Bu siyasət aktuallığının yoxlanılması müddəti 1 (bir) ildir.Lakin aşağıdakı hallarda yenilənə bilər:

- qanunvericilik dəyişdikdə
- beynəlxalq standartların tələbləri dəyişdikdə
- yeni risklər yarandıqda
- rəhbərliyin qərarı ilə